Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Şərq musiqi dünyasının incisi

**Seyid Şuşinskinin 130 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Şərq musiqi dünyasının incisi:** Seyid Şuşinskinin 130 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. K.Səmədzadə; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. – 22 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

**Seyid Şuşinskinin 130 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2019-cu ilin aprel ayında Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi, tanınmış musiqi xadimi və pedaqoq, respublikanın Xalq artisti Seyid Şuşinskinin (Mir Möhsün ağa Seyid İbrahim oğlunun) anadan olmasının 130 illiyi tamam olur.

Qarabağ xanəndəlik məktəbinə mənsub qüdrətli sənətkar Seyid Şuşinski xalqımızın mənəvi dünyasının formalaşmasında müstəsna əhəmiyyət daşıyan qədim muğam ənənələrimizi layiqincə qoruyub yaşatmışdır. Geniş diapazonlu nadir, ecazkar səsə və yüksək səhnə mədəniyyətinə malik böyük muğam ustası təkrarolunmaz mükəmməl ifaçılıq nümunələri ilə Azərbaycanın musiqi xəzinəsini daha da zənginləşdirmişdir. Seyid Şuşinski müəllim kimi uzun illər ərzində istedadlı musiqiçilərin yetişdirilməsi sahəsində də təqdirəlayiq fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliğində mühüm xidmətlərini nəzərə alaraq ustad sənətkar Seyid Şuşinskinin anadan olmasının 130-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Xalq artisti Seyid Şuşinskinin 130 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 4 fevral 2019-cu il.**

## Tərtibçidən

Seyid Şuşinski muğamın tədrisində, təlimində necə bir klassik cığır açıbsa, nəhəng-nəhəng müasirləri hələ də özlərini "şəyird" hesab edir, onun möhtəşəm ustadlıq qalasından kənara çıxa bilmirlər. Və çox maraqlıdır, Seyid Şuşinski ülgüsündən çıxan tələbələrin, demək olar ki, 99 faizi zaman-zaman Xalq artisti fəxri adına layiq görülüb.

Seyid Şuşinski klassik xanəndə idi. Onun adı ifaçılıq sənəti tarixində Cabbar Qaryağdıoğlu, Əbülhəsən Xan İqbal, Sadıqcan, Keçəçi oğlu Məhəmməd və Qurban Pirimov kimi böyük sənətkarlarla bir çəkilir. Seyidin irsi böyük bir məktəbdir. Bu məktəbdə Azərbaycan xanəndələrinin bütöv bir nəsli tərbiyə olunmuşdur. Azərabaycanın görkəmli xanəndəsi, musiqi xadimi Seyid Şuşinski 1889-cu ildə keçmiş Şuşa qəzasının Horadiz kəndində (indiki Füzuli rayonu) tacir ailəsində anadan olmuşdur. Seyid Şuşinski onun təxəllüsüdür. Əsl adı Mir Möhsün Ağa Seyid İbrahim oğludur. Seyid Şuşinski ilk təhsilini Horadiz mədrəsəsisində almışdır. Onun çox məlahətli səsi olmuşdur. 1907-ci ildə Şuşada musiqi məktəbində oxumuşdur. Şuşinskinin xanəndə kimi yetişməsində Cabbar Qaryağdıoğlunun böyük rolu olmuşdur. 1911-ci ildə Tiflisdə verdiyi konsertdən sonra Zaqafqaziyada məşhurlaşmışdı. Ü. Hacıbəyovun "Leyli və Məcnun" operasında İbn Salam, "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarında Sərvər və Əsgər rollarını ifa etmişdir. Kiyevdə onun ifasında bir sıra muğamlar vala yazılmışdır. Uzun müddət Azərbaycan Konservatoriyasında xanəndəlik sənətindən dərs demişdir. O, bir çox muğamlara yeni guşələr, xallar, hissələr əlavə etmişdir. Şuşinski muğamdan-muğama və hətta ritmik muğama məharətlə keçməyi bacaran xanəndə olmuşdur. Müğənnilərdən Y. Kələntərli, Ə. Əliyev, R. Muradova, Z. Xanlaraova onun yetişdirmələridir. Seyid Şuşinski 1965-ci il oktyabrın 1-də Bakıda vəfat etmişdir.

## Bölmə I

## Şərq musiqisinin iftixarı

Hər dəfə klassik muğam musiqisindən, bu xəzinənin nadir incilərindən söz düşəndə gözlərimiz qarşısında qoca Şərqin qüdrətli sənətkarlarından biri olan Seyid Şuşinskinin unudulmaz obrazı canlanır. Böyük xanəndə mənalı ömrünün 60 ilini xalq musiqisinə və onun inkişafına həsr etmişdir. 60 il onun incə səsi, sürəkli zəngulələri el şənliklərimizi riqqətə gətirmişdir. Fəxr edirik ki, Seyid kimi böyük xanəndəmiz və əməkdar müəllimimiz olmuşdur.

Seyid Şuşinskinin adı çəkiləndə hər birimizin ürəyi iftixar hissi ilə döyünür. O, Azərbaycan vokal sənətini inkişaf etdirməklə yanaşı, eyni zamanda milli musiqi mədəniyyətimizin müqəddəratı haqqında düşünmüşdür. Böyük sənətkar həmişə milli incəsənətə, bu sənətin fədailərinə maddi yardım göstərmiş və qayğıkeş bir mesenat kimi şöhrət qazanmışdır.

Azərbaycan teatrının kərpiclərini çiyinlərində daşımış məşhur sənətkarımız Hacıağa Abbasov Seyid Şuşinskinin qayğıkeşliyini belə xatırlayır: "1912-ci ildə mərhum Hüseyn Ərəblinski ilə birlikdə Tiflis şəhərinə artist Abbas Mirzəli Abbasovun benefesinə getmişdik. Tiflisdə yazıçı dostumuz Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) ilə görüşdük. O bizi evinə dəvət etdi. O zaman Tiflis şəhərində Mirzə Cəlilin rəhbərliyi altında "Molla Nəsrəddin" jurnalı nəşr edilirdi. Söhbət əsnasında Mirzə Cəlil dedi:

– Hacıağa, son iki ayda jurnalımız çıxmırdı, çünki pulumuz olmadığına görə mətbəə nəşr etmirdi. Yaxşı ki, bu günlərdə Seyid Şuşinski Batumdan gəldi və jurnalın hər iki nüsxəsinin pulunu verdikdən sonra dübarə mənə 200 manat qızıl pul göndərdi.

Seyid Şuşinski istər Tiflisdə, istərsə də Bakıda yaşayıb-yaradan həmsənətlərinin dərdinə qalmış və onlara maddi yardım göstərmişdi. Hacıağa Abbasov yenə də öz xatirələrində yazır ki, bəzən maddi vəziyyətimiz ağır olanda bir qrup artist yığışıb Tiflisə, Seyidə qonaq gedərdik. Ağa bizi çox məmnuniyyət və mehribanlıqla qəbul edər, bizim yol xərcimizi, mehmanxana haqq-hesabımızın hamısını ödədikdən sonra paltarı olmayan aktyorlara kostyum tikdirər, hətta iştirak etdiyi teatr tamaşasından bir qəpik belə almazdı. Üstəlik, Bakıya qayıdanda hər birimizə hədiyyələr və yol xərcliyi verərdi...

Seyid Şuşinskiyə adi musiqiçi demək olmazdı. O, öz millətinin tərəqqisi, gələcəyi haqqında düşünən, onun incəsənətini şöhrətləndirən mədəniyyət xadimi idi. O, öz dövrünün dəbdə olan xanəndəsi idi.

Belə bir həqiqəti açıq demək lazımdır ki, Seyid Şuşinski istər müğənniliyindən, istər sahibi olduğu restoran və mehmanxanadan, istərsə də saysız-hesabsız toy məclislərindən gələn gəlirlərinin hamısını teatr tamaşalarının təşkilinə, qəzet-jurnal nəşrinə, ehtiyacı olan sənətkarlara və yoxsul tələbələrə, bir sözlə, millətin mədəni ehtiyaclarına sərf etmişdir. Hətta o, inqilaba qədər Tiflis bolşevik təşkilatına və inqilabçılara da maddi yardımını əsirgəməmişdi. Bunlardan əlavə səxavətli sənətkar milli qırğın törədənlərin əlindən zərər çəkmiş kəndlilərin və qaçqınların xeyrinə konsertlər verərək onlara maddi yardım etmişdi.

## Bölmə II
## Həyat və yaradıcılığı

Azərbaycan musiqi mədəniyyəti tarixində müstəsna xidmətləri olan sənətkarlardan biri də məşhur xalq xanəndəsi Seyid Şuşinskidir. Klassik Şərq və Azərbaycan ifaçılıq sənəti tarixində xüsusi yeri olan Mir Möhsün Ağa Seyid İbrahim oğlu Şuşinski 1889-cu ilin yazında keçmiş Şuşa qəzasının Horadiz kəndində anadan olmuşdur. Mir Möhsün uşaq yaşlarında ikən atası vəfat edir. Balaca Möhsünün tərbiyəsi ilə xalası Məşədi Hürzad məşğul olur. Dövrünün savadlı və açıqfikirli qadını olan Məşədi Hürzad Qarabağın qadın toylarında xanəndəlik edərdi. Seyid Şuşinski çox sonralar xalasını böyük minnətdarlıq hissi ilə xatırlayaraq deyərdi: *"Atamın vəfatından sonra məni xalam saxlayıb. Onun çox incə və şirin səsi vardı. Xalam səsimi eşidəndən sonra məni də özü ilə toylara aparardı. O, bütün muğamlara dərindən bələd olmaqla "Orta mahur"u çox gözəl oxuyardı".*

Gənc Seyid ilk təhsilini Horadizdə mədrəsədə almışdı. O, burda fars və ərəb dillərini müəyyən dərəcədə öyrənir. Seyid xalq ədəbiyyatı ilə daha ciddi məşğul olar, aşıq havalarını və el havalarını həvəslə oxuyardı. Seyidin uşaqlıq illəri və incə səsi haqqında Horadiz kəndində bu vaxta qədər gözəl xatirələr yaşamaqdadır. Gənc Seyid kənddə mədrəsəni müvəffəqiyyətlə bitirdikdən sonra dərzilik sənəti ilə məşğul olur. Lakin buna baxmayaraq, arabir dini mərasimlərdə və xalq şənliklərində də çıxış edirdi. Seyidin peşəkar bir xanəndə kimi tanınmasında Azərbaycanda xanəndəlik sənətinin beşiyi olan Şuşa mühitinin həlledici rolu olmuşdur. Seyid Şuşinskinin şuşalılar qarşısında ilk çıxışı 1908-ci ildə "Yay klubu"nda olmuşdur.

Seyid Şuşinski xüsusi musiqi məktəbi bitirməmişdi. Lakin o öz fitri istedadı və bacarığı sayəsində gənclik illərində dövrünün

məşhur musiqişünaslarından, özündən yaşlı xanəndə və tarzənlərdən musiqi elminin sirlərini öyrənmişdi. O, artıq 20 yaşlarında Qarabağın "Ürəfa", məclislərində, "Əsnaf" toylarında çıxış edən birinci dərəcəli xanəndə kimi el arasında məşhur olmuşdu.

Seyid Şuşinskinin adı Azərbaycan xalqının qəlbini sevinclə döyündürən bir ad olmuşdur. Biz Seyidin adı çəkiləndə klassik tariximizi xatırlayırıq, çünki o, Azərbaycan musiqi mədəniyyətinin bir çox sahəsində xidmət göstərmiş bir sənətkar kimi məşhurdur. O, Azərbaycan vokal sənətinin inkişafında böyük iş görmüşdür. O, həmişə xalqa yaxın olmuş, xalqın tələb və zövqlərini öyrənib, öz yaradıcılığında bu tələblərə cavab verməyə çalışmışdır.

Azərbaycan opera musiqisinin banisi Üzeyir bəy Hacıbəyov onun müstəqil və orijinal yaradıcılıq yoluna malik olduğunu dəfələrlə qeyd etmişdir. Böyük müğənnimiz Cabbar Qaryağdıoğlu da onun adını həmişə fəxrlə çəkmiş, hətta Bakı məclislərinin birində öz qiymətli qavalını ona bağışlamış və Seyidi "Şərq musiqisinin incisi" adlandırmışdır. Onun yaxın köməyi və gözəl ifaçılıq fəaliyyəti nəticəsində Fikrət Əmirovun dünyanın bir çox ölkələrində böyük müvəffəqiyyətlər qazanmış "Şur", "Kürd-əfşarı" və Niyazinin "Rast" simfonik muğamları yaranmışdır. Unudulmaz bəstəkarımız Fikrət Əmirov Seyid Şuşinskinin zəngin səsinə, sənətkarlıq qabiliyyətinə yüksək qiymət vermişdir: "Doğrusu, mən Seyid Şuşinski haqqında fikir söyləməyə çətinlik çəkirəm, çünki mədəniyyət xəzinəsinin nadir incilərinə layiq söz söyləmək hamı üçün asan olmamışdır. Ancaq onu deyə bilərəm ki, klassik musiqimizin elə bir sahəsi yoxdur ki, Seyidin orada xidməti olmasın. Obrazlı desək, əgər Cabbar Qaryağdıoğlu xalq musiqisinin düşünən beyni idisə, Seyid Şuşinski bu musiqinin çırpınan ürəyidir. Seyid Şuşinskinin irsi böyük bir məktəbdir. Müasir xanəndələrimiz və

bəstəkarlarımız ondan çox şey öyrənə bilər və zənnimcə, "öyrənməlidirlər".

Seyid Şuşinski başqa aləm idi. O, yalnız gözəl səsinin qüdrətinə arxalanmamışdı. Seyid hələ gənc ikən dərk etmişdi ki, həqiqi xalq xanəndəsi olmaq üçün təkcə səslə kifayətlənmək olmaz. Məhz buna görə də, 60 illik yaradıcılıq dövründə sənət meydanında həmişə axtarışlar aparmış, klassik musiqi irsimizi dərindən öyrənmişdir. Böyük müğənnimiz musiqi sahəsindəki qələbələri fitri istedadının gücü sayəsində əldə etmişdir. Bu istedadın mahiyyəti isə gözəl səslə birlikdə sənəti sevmək, öyrənmək və ona şüurlu münasibət bəsləməkdir. Seyidin sənəti dünya musiqi ifaçılığının ən gözəl nümunələri ilə yan-yana duracaq yüksək bədii formaya malik sənətdir. Bu ululuq onun adını ölməz ifaçılarla bir cərgəyə çıxarıb, əsl muğam ustadı kimi tanıtdırıb. Klassik Şərq musiqisinin repertuarında elə bir muğam tapmaq çətindir ki, onu ifa etməkdə Seyid aciz olsun. Muğamlar onun əsl yaradıcılıq meydanı idi. Bu meydanda onun istedadı "Çahargah", "Mahur", "Humayun", "Nəva", "Məsnəvi", "Mani", "Arazbarı", "Heyratı" kimi mürəkkəb muğamların ifasında parlamışdır. Seyid hansı muğamı oxuyursa-oxusun, öz sənətkarlıq mövqeyindən yayınmırdı. O, daim düşünür və düşündürürdü, dinləyicini dərindən təsirləndirir, vurduğu incə və şirin gülüşləri ilə ruhlandırırdı. Seyid Şuşinski həmişə dinləyicilər qarşısında zəngin və orijinal repertuarla çıxış etmişdi. Onun oxuduğu və xalq tərəfindən sevilə-sevilə dinlənilən "Cahargah" muğamı, bəlkə də, bütün Yaxın Şərq ölkələrində şöhrət qazanmışdı. Cəsarətlə demək olar ki, musiqi tarixində "Cahargah" muğamını Seyid kimi ilhamla, ustalıqla və zövqlə oxuyan ikinci xanəndəmiz olmamışdır. Seyidin oxuduğu "Cahargah" xanəndələrimiz üçün örnək sayılırdı.

Seyid Şuşinski nadir istedada, geniş musiqi hafizəsinə və yüksək ifaçılıq mədəniyyətinə malik bir sənətkar idi.

Seyid-deyəndə bizim gözümüzün qabağında Azərbaycan musiqisinin bütöv mənzərəsi canlanır. O, musiqimizin inkişafında dahi müğənnimiz Cabbar Qaryağdıoğlunun ənənələrini dönmədən davam etdirmişdir. Seyid musiqi aləminə ilk qədəm qoyanda Cabbarın ifaçılıq məktəbini görmüşdür. Sonralar isə Şuşanın və Tiflisin musiqi həyatı Seyid üçün həqiqi konservatoriya olmuşdur.

Seyid Şuşinski novator sənətkar idi. O, bir çox muğamlara yeni guşələr, xallar, nəfəslər, hətta hissələr əlavə etmişdir.

“Rast” və “Kürdü-Şahnaz” muğamlarının “Dilkeş” hissəsini dinləyicilərimizə ilk dəfə çatdıran Seyid olmuşdur. Böyük sənətkar həm də bir çox muğamları birləşdirib oxumuşdur. Bunlardan “Rast-Humayun”, “Qatar-bayatı”, “Şur-Şahnaz” və s. dəstgahları göstərmək olar.

Seyid Şuşinski gözəlliyi, səmimiyyəti tərənnüm edən böyük müğənni idi. O, təkcə müəllimliklə kifayətlənməyərək, musiqi aləmində baş verən hər bir hadisəni diqqətlə izləyirdi. F. Şuşalı deyir: “Seyid Şuşinski alicənab, son dərəcə sadə və təmiz bir insan idi. Onun insani keyfiyyətləri sənətkarlığı ilə üzvi surətdə bağlı idi. O, eyni zamanda yüksək tərbiyəli adam idi.”

Böyük xanəndəmiz Seyid Şuşinskinin Azərbaycan musiqi mədəniyyətinin inkişafı tarixindəki çox səmərəli fəaliyyəti ona Azərbaycan SSRİ xalq artisti kimi yüksək ad verməklə, Şərəf ordeni və medallarla təltif etməklə təsbit olunmuşdur. Qocaman xanəndə respublikamızın Əməkdar müəllimi adını almışdı.

F. Məhəmmədoğlu deyir: “Seyid Şuşinskinin adı xalqımız tərəfindən fəxrlə çəkilir. Çünki bu şanlı adla musiqi qaynaqlarımızın bir çox sahələri bağlıdır. Seyid gözəlliyi, insaniyyəti, humanistliyi təbliğ edən böyük xanəndə idi. Belə sənətkarları isə tarix hər vaxt yetirmir...”

Seyid Şuşinskinin adı musiqi mədəniyyəti tariximizin qızıl səhifələrinə daxil olmuşdur.

## Bölmə III

## Yubiley tədbirlərinin keçirilməsi

Seyid Şuşinski xüsusi yaradıcılıq fərdiliyinə malik böyük sənətkar idi. O, muğam ifaçılığı sənətinin yeni inkişaf mərhələsini səciyyələndirən güclü və zəngin ənənə yaratmışdır. Həmin klassik ənənə nəinki xanəndə-sazəndə fəaliyyətində, həm də müasir Azərbaycan professional musiqi yaradıcılığında dərin kök salmışdır. Belə ki, ustadın ölməz sənəti ən qiymətli milli mənbələrdir.

Bildiyiniz kimi, bu il xalqımız, bütün musiqi ictimaiyyəti görkəmli musiqi xadimi, məşhur xanəndə Seyid Şuşinskinin anadan olmasının 130 illiyini geniş şəkildə qeyd edir. Yubiley münasibətilə respublikamızın hər bir musiqi, təhsil ocaqlarında, İncəsənət gimnaziyasında, Milli Konservatoriyada eləcə də respublikamızın bütün kitabxanalarında, İncəsənət muzeyində və s. yerlərdə xanəndə Seyid Şuşinskinin yubileyinin keçirilməsi nəzərdə tutulmuşdur.

F. Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq, məşhur xanəndəmiz, Azərbaycan musiqi sənətində özünəməxsus ifa tərzi ilə seçilən, həmişə zirvədə olan Seyid Şuşinskinin yubileyinin keçirilməsi haqqında tədbirlər planı hazirlamışıq. Bildiyiniz kimi, Azərbaycan Respubliksının Prezidenti İlham Əliyevin bu barədə sərəncamı 4 fevral 2019-cu ildə mətbuatda dərc olunmuşdur.

Seyid Şuşinskinin yubileyi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında yubileylə bağlı ilk olaraq sərgi nümayiş olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsənən: “Dünyaya səs salan səs!”, “Qüdrətli sənətkar, qayğıkeş insan”, “Xanəndələrin seyidi” “Muğam islahatçısı”, “Seyid Şuşinski – 130” və s. Sərgidə Seyid Şuşinski ilə bağlı dövri mətbuatda nəşr olunmuş qəzət və jurnal materialları,

kitablar və s. nümayiş olunur. Daha sonra xanəndənin həyat və yaradıcılığını əks etdirən foto sərgi təşkil olunur. **“Qüdrətli sənətkar, qayğıkeş insan”** adlı tədbirin ssenarisini sizlər üçün nümunə veririk.

1. Başlıq: **“Qüdrətli sənətkar, qayğıkeş insan”**;
2. Görkəmli şəxsiyyətlər Seyid Şuşinski haqqında;
3. Dövri mətbuatda çap olunan qəzət və jurnal materiallarının nümayişi;
4. Foto sərgi;
5. Haqqında kitablar;
6. Qramafon valları, kaset və audio səs yazmalarının nümayişi;
7. Seyid Şuşinskinin ifasında “Mahur” muğamı.






## Görkəmli şəxsiyyətlər Seyid Şuşinski haqqında

Seyid Şuşinskinin təkcə Azərbaycanda deyil, bütün Yaxın Şərqdə məşhurdu. O, geniş diapazonlu sənətkar, şair qəlbli insan idi. O bütün muğamları istər pəsdə, istərsə də zildə çətinlik çəkmədən məharətlə oxumuşdur. Onun istər cavan və istərsə də qoca yaşlarında qramofon vallarına və maqnitofon lentlərinə oxuduğu muğam, təsnif və el nəğmələri Şərq musiqisi xəzinəsinə bəxş etdiyi zəngin incilərdir.

**Firidun Şuşinski,**
*musiqişünas*

Seyid Şərq musiqisinin incisidir.

**Cabbar Qaryağdıoğlu,**
*xanəndə*

Müəllimlər müəllimi Seyid, ruhun şad olsun!

**Tahir Abbaslı,**
*jurnalist*

Özünün böyük ustalığı sayəsində milli musiqi mədəniyyəti tarixində şərəfli yer tutmuş Seyid Şuşinskinin əziz xatirəsi daim onu sevənlərin qəlbində yaşayacaqdır.

**Rafiq Salmanov,**
*fotomüxbir*

Seyid Şuşinski xüsusi yaradıcılıq fəaliyyətinə malik böyük sənətkar idi. O, muğam ifaçılığı sənətinin yeni inkişaf mərhələsini səciyyələndirən güclü və zəngin ənənə yaratmışdır. Həmin klassik ənənə nəinki xanəndə-sazəndə fəaliyyətində, həm də müasir Azərbaycan professional musiqi yaradıcılığında dərin kök salmışdır. Belə ki, ustadın ölməz sənəti ən qiymətli milli mənbələrdir.

**Xanəli Quliyev,**
*musiqişünas*

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də "*Dəyirmi masa*"dır. Dəyirmi masa oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Bu tədbirə kitabxanaçı sənətkarın həyat və yaradıcılığını yaxından izləyən, onun sənətini yüksək qiymətləndirən sənət nümayəndələrini dəvət edir. Kitabxanaçı görkəmli xanəndənin ömür yolundan söhbət açır. Tədbirə dəvət olunan muğam ifaçıları xanəndənin yaradıcılığına müraciət edərək, onun repertuarından bir çox musiqilər səsləndirirlər. Ara-sıra isə tədbirdə iştirak edən sənət adamları Seyid Şuşinski haqqında xatirələr söyləyirlər...

Horadizli Əsəd Mirzalı oğlu Seyid Şuşinski haqqında:"*Seyid dərsə çox fikir verərdi, həm də gözəl yaddaşı vardı. Məktəbə həmişə təmiz gələr və səliqə ilə geyinərdi. Olduqca gözəl yoldaşlığı var idi. Biz tez-tez kəndimizin ətrafındakı "İmam yalı"na oynamağa çıxardıq. O, həmişə hamıdan tez yalın başına çıxar və bizi çağırardı. Seyid zil və cingiltili səsi ilə o yalın təpəsindən: "Ay Mirzalı, ay Heydər, hey!..." deyə, çağıranda bütün kənd eşidərdi.*

*Seyid "İmam yalı"nda elə oxuyardı ki, o zaman zalımların əlindən qaçaq düşmüş Qaçaq Süleyman onun səsini Əhmədallar kəndində eşidib öz dəstəsilə "İmam yalı"na gələr və Seyidi oxudardı. Seyid Qaçaq Süleymana həmişə Mirzə Ələkbər Sabirin şeirlərini muğam üstündə deyərdi. Xüsusilə, Sabirin "Neylərdin, ilahi" və Məmmədəli şahı ifşa edən şeirlərini həvəslə oxuyardı".*

Böyük sənətkarın 1963-cü ildə Şuşada olarkən xatirələrindən: *"Hər kəsdən əvvəl məni məftun edən Qaryağdıoğlu Cabbar olmuşdu. Başqa bir sənət dostlarım kimi, mən də ustadım Cabbar Qaryağdıoğlundan çox şey öyrənmişəm. Cabbar Qaryağdıoğlunun gözəl oxumaqlarını, coşqun zəngulələrini çox eşitmişəm. Onun başqa bir zövqlə oxuduğu "Heyratı",*

*"Mahur", "Mənsuriyyə" muğamlarına qulaq asanda, ürəyim titrəyirdi. Mən fəxr edirəm ki, böyük Cabbarın tələbəsiyəm. Musiqi sahəsində əldə etdiyim nə qədər sənət qələbəsi varsa, mən bu böyük sənətkarın adı ilə bağlayıram.*

Böyük müğənni Cabbar Qaryağdıoğlu haqqında dediklərindən: *"Əmim Cabbarla dost idi. Məni özü ilə Cabbar oxuyan məclislərə aparardı. Ona qulaq asanda ürəyimdə arzular oyanırdı. Cabbar kimi bir usta xanəndə olmaq üçün öz üzərimdə həvəslə çalışırdım. Odur ki, saatlarla Cabbarın qramafon vallarına qulaq asar, həmişə onun oxumağını eşitməyə can atardım.*

*Cabbar Qaryağdıoğlundan sonra mənim ikinci müəllimim Əbülhəsən Xan Azər İqbal Soltan olmuşdur. Doğrusu, Əbülhəsən Xan haqqında söz söyləməyə çətinlik çəkirəm. Çünki böyük sənətkarlar haqqında söz danışmaq heç də asan deyil...İqbal Soltanı yada salanda həm sevinirəm, həm də kədərlənirəm. Sevinirəm ona görə ki, belə bir möcüzəli səs sahibini dinləmişəm, ondan çox şey öyrənmişəm. Əbdülhəsən Xan muğamın zil pərdələrində gəzişəndə mən zövqdən dəli olardım. O, nadir hallarda əlinə qaval alıb tarzənin yanında oxuyardı. Çox zaman ayaq üstə əllərini birləşdirib göbəyi üstə qoyub oxuyardı. Böyük xanəndə "Mahur"un yüksək nöqtələrində gəzişəndə belə onun sifətində heç bir dəyişiklik olmazdı. Bəzən xəfifcə gülümsəyərdi, bu da tamaşaçını məftun edərdi.*

"Unudulmaz xatirələr" adlı məqaləsində Seyid Şuşinski Üzeyir bəylə ilk tanışlığını belə təsvir edir: *"1919-cu ildə Tiflisdən Bakıya köçüb gəldiyim ildə hörmətli və unudulmaz bəstəkarımız Üzeyir Hacıbəyovla tanış oldum. O, mənim xanəndəliyimi bəyənib xəbər aldı ki, Azərbaycan operasına nə kimi kömək edə bilərəm.*

Mən Üzeyir Hacıbəyovun Azərbaycan operasını nə qədər böyük həvəs və mətanətlə yaratdığını öz gözlərimlə gördükdə, onun ölməz “Leyli və Məcnun” operası ilə, həmçinin mətn və musiqisi ilə yaxından tanış olduğum “Arşın mal alan” operettası ilə xalqımıza böyük xidmət göstərdiyini ürəkdən alqışladım və dedim:

-*Üzeyir, qardaşım, məni də öz qanadın altına al. Mən də əlimdən gələn qədər sənin böyük məqsədin yolunda çalışmaqdan bir an geri durmaram.*

Elə də oldu. 1919-cu ilin qış mövsümündə indi böyük ədibimiz M. F. Axundovun adını daşıyan Opera Teatrı səhnəsində mən həm Nofəl, həm də İbn Salamın rollarını ifa etdim.

...Milli opera yaratmaq kimi böyük və şərəfli vəzifəni üzərinə götürən Üzeyir Hacıbəyov öz ölməz əsərlərində klassik musiqimiz və ədəbiyyatımızdan, aşıq havaları və dastanlarından, həm də xalq nağıllarından geniş istifadə etmişdir. Onun yaradıcılığının şah əsəri olan “Koroğlu” bütün bu məziyyətləri özündə birləşdirmişdir. Buna görə də Üzeyir Hacıbəyovun əsərlərini xalqımız sevə-sevə alqışlayır”.

S.Şuşinskinin iştirakı ilə keçirilən məclislərdən birində yaxından iştirak edən Əziz Şərif bu gecələrdən birini belə xatırlayır:

*“...1914-cü il 14 mart tək günü, dostum İsmayıl Həqqi bir çox dostlarını, o cümlədən də Ərəblinskini evinə nahara dəvət etmişdi. Həqqigilə gələndə Hüseyn Cavid, Mirzəli Abbasov və yenə iki nəfər qonaq orada idi. Birazdan sonra Nadir İbrahimov və xanəndə Seyid gəldilər...*

*...Ərəblinski də gəldi...Burada otuz beş, qırxa qədər adam yığışmışdı. Qabaqca Nadir tar çaldı, qızlar oynadı, sonra Seyid oxudu...Seyidin “Şur” muğamına heç bir söz ola bilməzdi. Onun oxumağı hamını valeh eləmişdi.*

*...Gecə yarıya işləyəndə biz böyük dəstə ilə evdən çıxdıq. Seyid şikəstəni başladı, nə başladı! Tarı da Nadir çalırdı. Bu musiqidən adamın ruhu təmizlənirdi... O gecə çox şairanə gecə idi. Çünki gənc Seyidin səsi və məktəbli Nadirin xüsusi ilhamla dindirdiyi tarı hamının qəlbini oxşayır, hamıya sonsuz estetik ləzzət verirdi...".*

*Şübhəsiz ki, gənc Seyidin Mirzə Cəlil, Əbdürrrəhim bəy, Hüseyn Cavid və Hüseyn Ərəblinski kimi böyük sənətkarlarla durub-oturması onun görkəmli bir mədəniyyət xadimi kimi inkişaf edib tanınmasına müsbət təsir göstərmişdir. Mərhum xanəndə qoca vaxtlarında ömrünün Tiflis dövrünü, sənət dostlarını, xüsusilə Hüseyn Cavidi və Ərəblinskini tez-tez yad edərdi, həmişə Hüseyn Caviddən ağızdolusu danışardı və deyərdi ki, mən Hüseyn Cavid istedadda, qabiliyyətdə və mütəfəkkirlikdə ikinci bir şair tanımıram.*

Tarzən Dərviş xan Seyidi Tehrana dəvət edəndə demişdi: *"Sənin yerin Tehrandır. Sən nəinki orda, hətta bütün Şərqdə əvvəlinci oxuyan olarsan".*

Cəlil bəy Bağdadbəyov Seyidi xatırlayaraq yazmışdı: *"Seyid Şuşinskinin Bakıda ilk dəfə oxumağını Tağıyevin teatrında eşitdim. O zaman teatrda qoçular xuliqanlıq edib çox şuluqluq salırdılar. Seyid səhnədə oxumağa hazırlaşarkən tamaşaçılar onu tanımadıqları üçün səs-küy saldılar. Lakin Seyid "Qatar" üstündə ağzını açıb şeirin bir sətrini oxumamışdı ki, salonda görünməyən sakitlik olub, milçək uçuşu belə eşidilirdi. O, nadir hallarda tapılan və tamaşaçıları bir saniyədə özünə məftun edən səs və ahəngə malik olub, bütün məclis əhlini özünə cəlb etməklə, diqqətlə qulaq asmağa məcbur edirdi".*

Seyid Şuşinskini müşayiət edən tarzənin söylədiklərindən: *"Belə məlahətli bir səslə oxuyanın olmasını çoxdan arzulayırdım".*

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında Seyid Şuşinskinin anadan olmasının 130 illiyinə həsr olunmuş xatirə gecəsinin keçirilməsi də nəzərdə tutulmuşdur. Xatirə gecəsinə kitabxanaçı iki ay qabaqcadan hazırlaşmalı, tədbirdə iştirak edəcək qonaqları müəyyənləşdirməlidir. Gecəyə respublikanın tanınmış elm, incəsənət xadimləri ilə yanaşı, ustad xanəndənin tələbələri, eləcə də yaxın qohumları dəvət edilə bilər. **“Seyid Şuşinski – 130”** adlı tədbirin başlığı səhnənin divarından asılır. Səhnə gül-çiçəklə bəzədilir. Gecə xanəndənin ifasında səslənən “Arazbarı” ritmik muğamı ilə başlayır. Aparıcılar səhnəyə daxil olur.

**I Aparıcı:** Muğam olduqca çoxcəhətli, heyrətamiz xüsusiyyətlərə malikdir. O xalqın tükənməz mənəvi qüdrəti, dərin düşüncələr aləmi, bütöv fəlsəfi konsepsiyasıdır. Bu əvəzsiz sərvətin qondarma və naqis təsirlərdən qorunması hər bir musiqi xadiminin mənəvi borcudur. Muğamın taleyində tarix boyu ən başlıca rolu ifaçılıq sənəti oynamışdır. Bədii kamillik, yüksək sənətkarlıq timsalı kimi muğam həmişə qüdrətli sənətkarların ifasında heyrət doğurmuşdur. Azərbaycan muğam ifaçılığı sənətində misilsiz xidmətləri olan məşhur xanəndə Seyid Şuşinski fitri istedadı və müstəsna məharəti ilə bunu bir daha təsdiq etmişdir.

**II Aparıcı:** Seyid Şuşinskinin gözəl səsi və sənətkarlıq məharəti Zaqafqaziyanın bir çox mədəniyyət və incəsənət xadimlərinin diqqətini cəlb etmişdir. Həmçinin Azərbaycanın bir çox mədəniyyət xadimlərinin diqqətini cəlb etmişdir. Elə bu baxımdan, Abbas Səhhətin şair ürəyi dilə gəlir. Şair istedadlı nəğməkarın şərəfinə bu şeiri söyləyir:

Dədəgünəş piri bir gün mənə məkan oldu,
Yerim mübaliğəsiz rövzeyi-cinan oldu.
Rəisi-məclisimiz Həqqi bəy, Məmmədəli,
Ağlarbəy, Camo idi o məclisin gözəli.
Səfər çalır, oxuyurdu Ağaseyid qəzəli,
Görən deyərdi ki, cənnət yəqin əyan oldu.

Qovaqların arasından baxırdı ay gecələr,
Gülüb ay üzlü Səfər də çalırdı nay gecələr.
Olarmı bir də görəydim səni mən, ay gecələr.
Səninlə qəmli könül şadü kamran oldu.

Seyid Şuşinski xoşbəxt sənətkar idi. O, ilk dəfə musiqi aləminə qədəm qoyarkən Şərq musiqisinin bahadırları olan Cabbar Qaryağdıoğlunu, Əbülhəsən xan İqbalı, Bülbülcanı, Keçəçioğlu Məhəmmədi, Şəkili Ələsgəri çox eşitmiş, onların sənət bağçasından ətirli güllər dərmişdi. Seyid Şuşinski bu güllü-çiçəkli bağçanın bir bülbülü kimi onu yad təsirlərdən qeyrətlə qorumuşdur. O, klassik Şərq ədəbiyyatına, xüsusilə, Sədi, Hafiz və Füzulinin irsinə dərindən bələd idi. Fars dilində şeir oxuyanda adamı valeh edərdi.

*Seyid Şuşinskinin ifasında "Çahargah" muğamı səslənir.*

**I Aparıcı:** Seyid Şuşinski Bakıda yaşadığı illərdə xalqın xeyriyyə işlərində yaxından iştirak etmiş, yoxsul tələbələrin və aclıq çəkən Azərbaycan kəndlərinin mənafeyinə çoxlu konsertlər vermişdir.

Görkəmli müğənni klassik Azərbaycan xalq musiqisinin və mahnılarının xalqlar arasında yayılmasında da ciddi fəaliyyət göstərmişdir. O, 1921-1922-ci illərdə xanəndə Keçəçioğlu Məhəmmədin yaxından iştirakı ilə Qafqazın bir sıra şəhərlərində konsertlər vermişdir. Maraqlı burasıdır ki, verilən konsertlərin proqramları rəngarəng olmaqla yanaşı, həm də beynəlmiləl idi. Həmin konsertlərdə S. Şuşinski nəinki Azərbaycan muğam və mahnılarını, hətta gürcü mahnılarını oxumaqla Zaqafqaziya xalqlarının hüsn-rəğbətini qazanmışdır.

S. Şuşinski 1924-1926-cı illərdə Azərbaycan Dövlət Akademik Dram Teatrının artisti olmuşdur. O, teatr tamaşalarında bir çox rollarda çıxış etməklə səhnə sənətinin inkişafına yardım etmişdir. 1926-cı ildə Bakı şəhərində "Böyük Şərq konserti" olmuşdur. Bu konsertdə Cabbar Qaryağdıoğlu, Bülbül, Əli Zülalov, Qurban Pirimov, Eloğlu İsmayıl ilə birlikdə Seyid Şuşinski də çıxış etmişdi. Konsertdə "Mahur" və "Mani"

muğamlarını böyük məharətlə ifa edən S. Şuşinskini dinləyicilər dəfələrlə səhnəyə çağırmış, onu qızğın alqışlara qərq etmişlər.

S. Şuşinski 1926-cı ilin sonunda böyük bəstəkar Üzeyir Hacıbəyovun təşəbbüsü ilə Azərbaycan Dövlət Konservatoriyasına dəvət olunur. O, Cabbar Qaryağdıoğlu və Keçəçioğlu Məhəmməd ilə birlikdə yeni açılmış xanəndəlik sinfində müəllimlik etməyə başlayır.

Seyid Şuşinski öz böyük ustalığı sayəsində milli musiqi mədəniyyəti tarixində özünə şərəfli bir yer tutmuşdur. O, musiqi aləminə yeni rənglər, yeni orijinal musiqi formaları əlavə etmişdir. Geniş məlumata, aydın dünyagörüşə malik olan sənətkarın yaradıcılıq inkişafı çox ardıcıl olmuşdur.

Seyidin dalınca getmək üçün hərtərəfli musiqi təhsilinə malik olmaq lazımdır. Onun yolu ilə getmək istəyən musiqiçi Azərbaycan musiqisini mükəmməl bilməli, onun incəliklərini qavramalı, muğamatın texnikasına yiyələnməlidir.

O, gözəlliyi, səmimiyyəti və azadlığı tərənnüm edən böyük müğənni idi. Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında Seyid Şuşinski çox mühüm rol oynamışdır. Bütün ictimai fəaliyyətinin və yaradıcılığının mündəricəsi ilə xalq mədəniyyətinə, musiqisinə möhkəm bağlı olan Seyid Şuşinski 60 ilin ərzində bütün yaradıcılıq səylərini milli vokal repertuarını yaratmağa yönəltmişdir.

Seyid Şuşinski Azərbaycan musiqi mədəniyyəti tarixində haqlı olaraq get-gedə daha yüksək qiymətləndirilən, daha çox sevilən böyük müğənnidir. Şübhəsiz, xalqımızın gələcək nəsilləri də onu ehtiramla yad edəcək, ona öz milli musiqisinin tarixində fəxri yer verəcək.

*Tədbir S.Şuşinskinin lent yazısı "Qarabağ şikəstəsi" ilə başa çatır.*

**S O N**

## Ədəbiyyat siyahısı


**Kitablarda**

**Şuşinski F.** Seyid Şuşinski // Azərbaycan musiqi xəzinəsi. – Bakı : Vətənoğlu, 2015. – S. 499-534.

**Dövri mətbuatda**

**Seyid Şuşinskinin 130** illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (4 fevral 2019-cu il) // Respublika. - 2019. - 5 fevral. - **№ 28**. - S. 1.

**Abbaslı T.** Çeşmə Səs, seçmə Avaz : muğam ifaçısı Seyid Şuşinski haqqında // Mədəniyyət. - 2015. - 10 aprel. - № 27. - S. 15.

**Abbasova A.** Ruhumuzun qidası muğamdır // Savalan. - 2017. - 28-30 noyabr. - **№ 44**. - S. 2.

**Əsədullayev A.** Peşəkarlıq - bu, muğam ifaçılığının əsas şərtidir // Mədəniyyət.az. - 2018. - **№ (322)**. - S. 34-37.

**Muğam sənətinin ustadı** Seyid Şuşinskinin 130 illik yubileyi qeyd ediləcək // Mədəniyyət. - 2019. - 6 fevral. - **№ 10**. - S. 1.

**Seymur.** Ustaddan halallıq : Seyid Şuşinskini 38 il evində yaşadan ustad // Qobustan. - 2015. - **№ 3**. - S. 27-28.

# Şərq musiqi dünyasının incisi

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 16
Çapa imzalanmışdır: 15.03.2019
Tirajı:100
Pulsuz